# Cikciki çəyirtkəyə məktub...



## Şair-publisist Aidə Adıgözəlin portretindən cizgilər

***Əziz oxucular, bu mətnin adı Aida xanımın taleyindən və yaradıcılığından gəlir... kimsəyə qəribə gəlməsin...***

Başlıqda məktub ifadəsi işlənsə də bir az janr qarışıqlığı var; ədəbiyyatda belə şeylər olur. Əsas odur ki, mən çəyirtkədən yox , sözün həqiqi mənasında yanan çıraqdan (özü piltə, işığı söz ) danışıram...

* * *

Bu gün Aida Adıgözəlin belə bir mətnini oxudum: "Dostluğumda beş-altı adam var, ümumi ictimaiyyətə açıq status yayır; ya ciddi, ya yumorla, amma həm öz postunda öz kruqunu layk edib ona cavab rəyi yazır, həm də öz kruqunun postlarında aktivdir. Anlamıram, ancaq öz kruqunla xoşbəxt və rahatsansa o zaman başqalarını niyə dostluğuna alırsan, paylaşımlarını publikaya gizli yox, açıq edirsən ki? Elə profilində tək özün ol, bir də "curik"lərin də... Bir neçə dəfə şübhəmə əminlikçin test eləyib rəy yazdım, gördüm şübhəmdə haqlıyam. Qərar vermişəm, sakitcə o adamları "izbavit" edəcəm profilimdən." Eləmədim tənbəllik şübhə qarışıq nigarançılığımı bir cümlə ilə Aida xanımın statusuna rəydə yazdım: "İzbavit ha... yəqin mən də ondan, yəni izbavitdən olaram." Bundan sonra Aida xanım dostluq sədaqətini ifadə edən bir söz yazdı: "Qətiyyən , Əli Rza Xəlefli"... Dörd sözün içindəki qətiyyət hörməti də özü ilə birgə üzə çıxarmışdı...

İlk baxışdan heç bir dərdi --səri olmamış kimi görünən bu sənətkar xanım haqda yolüstü polemika qarışıq düşüncələrimi yazmağa başladım... Əvvəllər mənə elə gəlirdi ki, onun portreti asan yazılar... hiss edirdim ki, indi dəmirtikan (belə bir bitki var) çöllüyündən keçirəm... Rəngləri necə çəkəsən ki, bu asanlıqla görməyin mümkün olmadığı tam fərqli insan obrazını yarada biləsən...

...Aida Adıgözəl, kaş sənin (xahiş edirəm "sən" müraciətini səmimi qəbul et... bəziləri kimi "SİZ" davası aparma) bu status mətnlərini (onun sərt sarkazm örnəkləri olan statusları vaxt ötdükcə FB qəbristanlığında dərinliklərə gömülür.) yığıb ayrılıqda kitab halında çap etmək mümkün olaydı ; bunun dilimizə, milli düşüncəmizə nə qədər faydası olardı: "Canlı dil fraqmentləri...bir az zarafat, bir az ciddi...", yaxud "Cikciki çəyirtkənin nəğmələri" ....hə kitabın üçün belə adlar necədir... dava salmayasan... kitab adlarına görə qonorar istəmirəm ki, neyləyim ərköyünsən... sözün, ədəbiyyatın və nəhayət bu ağlamalı cəmiyyətin güləyən (həm də gülməli, facianədir deyilmi, qanmağın ağrısı və anlamağın acısı ilə yaşamaq kimsəyə asan gəlməsin ) qızı... yazıçısı, şairi, ağzıdönməz publisisti...

Hələ də düşünürəm aşırı dərəcədə istedad, uğurlu bədii yaradıcılıq, cəmiyyətin kəm kəsirlərinə qarşı orijinal, inadlı müqavimət gücü göstərmək... iqtidarında olan müəllifi ümumi ədəbi diqqətdən kənarda qoymaq ən azı ədalətsizlikdir ... bir sözlə görməzdən gəlmək Aida Adıgözələ çox haqsız bir yanaşmadır...

Doğrudur Aidanın özü də az aşın duzu deyil, birdən "babam mənə kor deyib" vulkanı ilə püskürməyi də var... Düşünürəm ki, bu da onun aşırı cəsarəti, və enerjisinin idarə olunmazlığı, özünə sığmazlığı ilə bağlıdır... belə məqamlarda onun yol verdiyi ifratçılıqları da bağışlamaq olar...

* * *

Mətləbin bu yerində mənə elə gəldi ki, xış dərinə işləyir... çox dərini istəmirəm; bunun qayıdıb o dərinlikdən çıxmağı da var axı...

Dönüb üzümü tutdum özünə; Sözün "qan-qan" deyən qızı, İcazə versən bu mətni öz səhifəmdə, artıq kifayət qədər izləyicisi olan BAXIŞ BUCAĞINDA hər kəsə açıqlıqla təqdim edərəm... Hələ bir görək (bu da bir cür təcrübədir, guya ki, sözüm qurtardı) nə cavab verəcək...

Sözümə davam edirəm; yəqin ki oxucu diqqətinə çatana qədər bir az da ətə-qana dolar...

Özün görürsən ki, burada özün kimi bir az cansızdır... özün demiş axı sənin çəyirtkəyə oxşamağın da var... sözünü sıçrayışla məntiqdən məntiqə keçirməyin bir az bənzətməyə haqq qazandırır...

Sözün həqiqi mənasında sənin sürətli, çevik düşüncə ilə özünü ifadə imkanlarını həmişə hiss etmişəm... Görünür bu adın ilk müəllifi kifayət qədər müşahidəli imiş...

Bağışla unutdum, axı bu qeydlər məktub janrındadır... Qeydlərimin adını belə yazaram: "Cikciki çəyirtkəyə məktub..."

* * *

Bu yerdə onu deyim ki, Aidə xanım mətnin həmin hissəsinə bir ürək şəkli ilə münasibət bildirdi...

Bu davakar qızın bu iltifatlı münasibəti məni az qala çaşdırmışdı. Ona görə belə bir qeyd yazdım :"Bu nədir... mən belə ehtirama...O gülən sarı kəllədən, zaddan olsaydı , yenə...Cavabını bildir... keçirim mətni Baxış bucağına..."

Bu yerdə bir inciklik də yadıma düşdü: "Mənə kitab vermədiyinə görə incimədim o vaxt.. kitabını mənim yanımda kimlərəsə bağışladın..." Axı arabir belə sancmalar olmadan portreti dəqiq cizgilərlə işləmək mümkün deyil...

Aida söz fikir quddasıdır... sözün yeddi qatınacan yenə bilir... Ona görə ehtiyatı əldən vermədim: "Özü də qırmızını mətni tam oxumadan göndərdin"

Hə, əziz dostlar...

Həqiqətən Aida Adıgözəlin sənət taleyi izlənməyə, öyrənməyə ( öyrənilməyə) tam əsas verir...

Bircə mətnini oxumaq bəs edir ki, inanasan Mirzə Cəlilin bu adda bir varisi var...

* * *

Mətn boyu suallarım da vardı... əslində cavab istəməyən suallardı...ancaq Aida Adıgözəlin cavabı (yuxarıda dedim axı test sualı qoymuşdum) gecikmədi: "Elirza Xelefli... Əlirza müəllim, mənə ürəklə "sən" deyə bilərsiniz, bundan narahat olmayın. Sizə hörmətim sonsuzdur. Xoş sözləriniz üçün çox təşəkkür edirəm. Bunu mənə həmişə deyirlər; jurnalistikadan, ədəbiyyatdan anlayanlar "dilin zəngin, publisistikan yaxşıdır" - deyə. Nə xoş mənə siz də elə görürsünüzsə, o cür təqdim edə bilmişəmsə. Qaldı mətnə, sizə peşəkar qəzet işçisisiz, əlbəttə, nə vaxt nəyi istəyirsiz götürüb istifadə edə bilərsiniz. ... Bu məni ancaq xoşbəxt edə bilər, hörmətlərimlə." Elə beləcə... qəribə cümlə quruluşları (həm də mükəmməl) ilə və açıq və cəsarətli (çevik düşüncə adamı olaraq arabir saçmalarımı da hiss etməmiş deyildi) razılıqla...

Aida Adıgözəl tam azad qadın və yazar düşüncəsinin daşıyıcısıdır...

Sərhədlərini mükəmməl şəxsiyyət məsuliyyəti ilə qorumaq gücü var... İnanıram ki, onu vaxtında tanımayanlardan həddini aşmaq istəyənlərin dişini qarnına elə tokub ki, ağızlarının qanı hələ də kəsməyib... hərdən açıqlığı ilə ac adam təsiri buraxsa da, ruhən aşırı dərəcədə gözü toxdur...

Burda bir sözüm var; kaş inamla kimisə sevəydi...inanıram ki tamahdan kənar səmimiyyətlə gözləri arxasınca sürünənlərdə az olmaz... səmimi ilə qeyri səmimini ayırmaq onun üçün çətin olmaz... çünki erudisiyası, fəhmi, duyumu çox güclüdür...

Bunları yaşıma güvənib dedim, zənnimcə Aida xanım bu qeydlərdəki səmimiyyəti də asanlıqla duyar. Onu da deyim ki, heç yetmiş yaşımın təbrikini də sözünə gətirməyib...

Cizgilər harmoniya yarada bildimi... deyə bilmərəm...

Bədii mətn istəyənlərə isə deyirəm; darıxmayın , Aida xanım nə vaxt mənə kitab versə , yazıya seçmələr əlavə edəcəm...

Mən onun poeziyasından elə sizin kimi fb dən halıyam...şairi tanımaq üçün sosial şəbəkə də kifayət qədər bəs edir...

P.S. Keçmişdə qəddar qaynanası onu qıcıqlandırmaq, cırnatmaq üçün "Cik ciki çəyirtkə" adlandırırmış...

***Əli Rza*** Xəlefli
***07.08. 2023***

**QEYD:** ***Bir az yolda yazdım, yekunu Lökbatanda başa gəldi.***